# Workbook

## DAHA AĞILLI İDARƏ ET




8 KİTABIN
İŞ DƏFTƏRİ

Dəyərli oxucu,

Daha Ağıllı İdarə Et! Kitabının Çalışma Dəftərindən sizin üçün seçdiyimiz nümunə ilə burada tanış ola bilərsiniz.

Menecment və Liderlik bölümündən: **Liderliyin 21 Qanunu**

Oxucuları tərəfindən çox sevilən Daha Ağıllı İdarə Et! Kitabını və Çalışma Dəftərini book.readit.az saytından və ya **055 605 93 88** whatsapp nömrəsinə yazaraq, ENDİRİMLİ əldə edə bilərsiniz.

Xoş Oxumalar,
Readit.Az komandası

# MÜNDƏRİCAT


Workbook - iş dəftəri haqqında 2

Məqsəd: Davamlı İnkişaf Prosesi 3

İcranın 4 dərsi: Ən vacib hədəflərə çatmaq qaydaları 6

Yoxlama Siyahısı Manifesti: İşləri düzgün həyata keçirmək 8

Rəqabət strategiyası. Rəqib analizi metodları 10

Komandaların beş çatışmazlığı. Liderlik əfsanəsi. 14

Qul necə idarə edilməlidir? 17

Möhtəşəm Liderlik 19

Liderliyin 21 Qanunu 22

Bu iş dəftəri “Daha ağıllı idarə et” kitabının bir parçasıdır və kitabla bərabər istifadə olunmaldır. Çalışma dəftərinə “Daha ağıllı idarə et” kitabına daxil olan 8 kitabın çalışmaları daxildir.

> *P.s. Sizin fikriniz bizim üçün önəmlidir. Çalışma dəftərinin nə qədər faydalı olduğunu, gələcəkdə bu tipdə məhsul görmək istəyinizi və ümumilikdə təklif və iradlarınızı bizə* ***summary@readit.az*** *mail-nə yazmağı sizdən xahiş edirik. Bu sizə gələcəkdə daha yüksək səviyyədə xidmət etməyimizə yardımçı olacaq. Öncədən təşəkkür edirik.*

**İş dəftərinə keçməzdən öncə:**

- Kitabı və ya məzmununu diqqətlə oxuyun.

- Özünüz üçün bir plan qurun və çətinliklə qarşılaşdıqda yenidən kitabı və ya məzmunu vərəqləyin.

**İş dəftərindən necə istifadə etmək olar?**

- Ardıcıl tapşırıqları və məsləhətləri yerinə yetirmək

- Hər bir tapşırıqla bağlı təkcə kitabdan və ya məzmundan istifadə etməklə deyil, həmçinin əlavə mənbələrdən məlumat almaq daha effektivdir. Bunun üçün biz bilərəkdən çalışma dəftərinə bəlkə də sizə tanış olmayan terminlər yerləşdirmişik. Əlavə kiçik araşdırma aparmaqla, işinizi daha effektiv görə bilərsiniz.

- Elə tapşırıq ola bilər ki, ilk baxışdan sizin fəaliyyətə yaramaya bilər. Ancaq bençmarkinq etmək fəaliyyətinizdə yeniliklərə gətirib çıxarda bilər. Ona görə də yoxlamağa çalışın.

Əgər kitabı əldə etməmisinizsə, aşağıdakı linkdən sifariş verə bilərsiniz:

https://book.readit.az/

Lider dedikdə, adətən böyük qurumları, təşkilatları və ya şirkətləri idarə edən şəxslər ağlımıza gəlir. Buna baxmayaraq, liderlik sadəcə yüksək vəzifəyə aid olan bir proses deyil. İstənilən qrupda fəaliyyətləri həyata keçirmək üçün çalışan bir lider olur. Liderlər insanları müəyyən bir məqsədə nail olmaq üçün motivasiya edən və aktivləşdirən şəxslərdir.

1. **Geniş baxış bucağına malik olaraq effektivliyinizi artırın**

Geniş baxış bucağına malik olmaq üçün dünya görüşünüzü, planlaşdırma qabiliyyətinizi, analitik xüsusiyyətləri həmişə inkişaf etdirməlisiniz.

1.1. Problemə yalnız bir bucaq altında baxmağı tərgidin. Hər bir problemə müxtəlif baxış bucağı altında baxmağa çalışın. Bunun üçün həmin problemi müxtəlif zamanlarda, müxtəlif situasiyalarda canlandırın.

1.2. Hər bir qərarın nəticəsini, layihə bitincə onun analiz edin. Bu zaman 3 sualı cavablandırmaq sizin effektivliyinizi artıracaq, baxış bucağınızı genişlndirəcək: “Nəyi düz etdim?”, “nəyi etməməliydim?”, “nələri düzəltməliyəm?”

1.3. Təsir etmək üçün nəticə göstərmək lazımdır. Nəticələrinizi, təcrübələrinizi komanda ilə bölüşün.

> Həqiqi lider olmaq üçün təsir qüvvənizi artırmalısınız. Bunun üçün insanları uğura aparmaq lazımdır. İnsanlar uğura aparan insanları izləyirlər.

1.4. Hər hansı bir lider uğur qazanmaq üçün bu xüsusiyyətlərə sahib olmalıdır: Qabiliyyət, əlaqə və xarakter. Bu 3-nə həmişə fokus olmaq lazımdır.

İnsanlar qabiliyyətlərlə bağlı səhvləri bağışlasa da, xarakterlə bağlı çatışmazlıqları olanlara etibar etmirlər.

**2. Nəyi bildiyini və bilmədiyini bilmək.**

*Liderlik davamlı olaraq inkişaf edir, bir gündə formalaşmır.* Bu o deməkdir ki, siz hər hansı bir insanın gündəlik vərdişlərinə və üstünlük verdiyi məsələlərə diqqət yetirməklə, onun gələcəkdə necə bir insan olacağını təxmin edə bilərsiniz.

2.1. “Nəyi bilirəm” və “nəyi bilmirəm” adlı bir cədvəl qurun. Bunun üçün KWL (Know, Wonder, Learned) tipli cədvəldən istifadə edə bilərsiniz.

2.2. Məqsəd və prioritetlərinizi yazın, tez-təz bu yazınıza müraciət edərək nə qədər irəlilədiyinizi analiz edin. Bu yolda nəyi öyrənməli olduğunuz hissəni daima doldurun.

2.3. İntuisiya qabiliyyətini inkişaf etdirin.

İntuisiya qabiliyyəti təcrübələrə əsaslanır. Hər bir təcrübəniz barəsində qeydlər aparmaq sizin intuisiya qabiliyyətinizi inkişaf etdirəcək.

**3. Ətrafınıza güclü insanlar toplayın.**

3.1. Əməkdaşlarınızın hansı xüsusiyyətləri xoşunuza gəlmir? Bu barədə onlarla söhbət edin, onların inkişafına dəstək olmağa çalışın.

3.2. İnsanları anlamağa çalışın, onların xarakterinə uyğun olaraq əlaqə qurmağa başlayın.

3.3. Çalışın özünüzdən də güclü və bacarıqlı insanlarla əhatələnəsiniz.

Özünə inamı aşağı olan liderlər otaqdakı ən ağıllı və qabiliyyətli insan özləri olmadıqda, təhlükə hiss edirlər. Buna görə də özlərini zəif insanlarla əhatə edirlər.

3.4. Çevrənizi gücləndirmək üçün ətrafınızda 5 tip insanların olmasına çalışmalısınız:

- *Özlərini inkişaf etdirən insanlar*

- *Şirkət daxilində əhval-ruhiyyəni yüksəldənlər*

- *Lideri inkişaf etdirənlər*

- *Başqalarını inkişaf etdirənlər*

- *Başqa insanları inkişaf etdirənləri təkmilləşdirən insanlar*

3.5. Əməkdaşların səlahiyyətlərini genişləndirin.

İnsanların uğur qazanmaq qabiliyyəti liderlərinin səlahiyyət vermək qabiliyyəti ilə müəyyənləşir. Səlahiyyət verməyin ən böyük düşməni hakimiyyət arzusudur. Zəif lider köməkçilərindən hansısa birinin onun yerinə keçməsindən qorxur.

3.6. Yalnız qələbəyə fokuslanın, bunu əməkdaşlarınızda da aşılayın.

Müəllif qələbə qazanan liderlərin qələbədən başqa heç bir nəticəni qəbul etmədiyini düşünür. Buna görə də, onlar qələbəyə fokuslanır və bütün hərəkətlərini buna uyğun planlaşdırırlar.

**4. Qərarlar, prioritetlər və xarakter**

4.1. “Böyük həmlə” etmək üçün vaxtında və tez bir zamanda qərar verməyi bacarmalısınız.

> Unutmayın “səhv qərar” “qərarsızlıqdan” qat-qat yaxşıdır.

4.2. Prioritetlərlə işləməyi öyrənməlisiniz. Maksvel prioritetləri müəyyənləşdirərkən *3R* prinsipindən istifadə edir: *Requirement/Tələb*, *Return/Gəlir*, *Reward/Mükafat.* Müəllifin fikrincə, liderlər effektiv fəaliyyət göstərə bilmək üçün aşağıdakı üç əsas suala fokuslanmalıdır:

- Nə tələb edilir?

- Ən yaxşı qazancı nə verir?

- Ən yaxşı mükafatı nə verir?

4.3. Fədakarlıqdan çəkinməyin, lider olmaq üçün fədakar olmaq lazımdır.

Maksvel qeyd edir: *“Fədakarlıq etmədən uğur qazanmaq olmaz. Həyatda uğur qazanan hər insan onu əldə etmək üçün fədakarlıq edib.”* Fərdi qazanc və ya şöhrət ardınca qaçırsınızsa, deməli həqiqi lider deyilsiniz.

4.4. Liderləri yetişdirən lider olmağı hədəfləməlisiniz.

Firmanıza 10 izləyici əlavə etdikdə 10 nəfərin gücünü qazanırsınız. Ancaq firmanıza 10 lider əlavə etdikdə, həmin 10 liderə və onların izləyiclərinə sahib olursunuz.

4.5. Rəhbərlik etdiyiniz qrupu və ya şirkəti bu günü deyil, sabahı düşünərək idarə edin.

Miras qanunu *"hər hansı bir liderin mövcudluğunu davam etdirən dəyər ondan sonra qalan şeylərlə ölçülür"* şəklində ifadə olunur. Sizə Miras qanununa uyğun olaraq qiymət veriləcək. Davam edən faydanız arxanızda qalanlarla ölçüləcək.

# BU DA SON.
# NECƏ DAVAM ETMƏLİYƏM?

Əgər çalışma dəftərini qismən də olsa işinizdə həyata keçirməyə başlamısınızsa, qısa müddətdə effektini görməyə başlayacaqsınız. Ümid edirəm ki, bu tipdə olan yeni layihəmizi bəyəndiniz və sizin uğurunuzda kiçik də olsa, payımız olacaq :)

Unutmayın! Bu proses davamlı olmalıdır, daima təkmilləşmək üçün bu və digər kitablara müraciət etməlisiniz, biznesinizə kənardan baxmaq üçün konsultasiya xidmətlərindən yararlanmalısınız.

Mən şəxsən oxuduğum hər bir biznes kitabını fəaliyyətimdə tədbiq etməyə çalışıram, hər bir yeni konsultasiya layihəsi götürdükdə Readit-dəki məzmunları təkrar-təkrar oxuyuram ki, effektivliyimi qaldırım və müştərilərə hər dəfəsindən daha yüksək xidmət göstərim.

Siz də daima yenilənməyə, inkişafa fokuslanın. Bu zaman istehsal etdiyiniz məhsulun və ya xidmətin keyfiyyəti yüksələcək və daha təlabatda olacaq.

**İşlərinizdə uğurlar, tezliklə görüşənədək!**

*Hörmətlə,*
*Elmir Kərimli.*
*Founder www.readit.az*
*summary@readit.az*